DÖVLƏT
VERGİ
XİDMƏTİ

# Yerli və xarici mənşəli kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə qaydada satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanacaqdır

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən**

- **2022-ci ilin 1 yanvar tarixindən əldə edilmiş**
- yerli və xarici mənşəli kənd təsərrüfatı məhsullarının **topdan və pərakəndə satışı**
- elektron qaimə-faktura,
- idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys),

  elektron alış aktı,
- topdan və pərakəndə satışı müvafiq olaraq elektron qaimə-faktura və nəzarət kassa-aparatının çeki ilə **rəsmiləşdirildiyi halda**

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

**01.01.2022-ci il tarixdən etibarən 3 il müddətində** ƏDV ticarət əlavəsindən hesablanır və bu tarixdən əldə edilmiş həmin məhsullara görə **3 il müddətində ödənilmiş ƏDV məbləğləri əvəzləşdirilmir**, həmin sənədlərlə **rəsmiləşdirilmədiyi halda isə ƏDV ümumi dövriyyədən hesablanır**.

- **2022-ci il yanvarın 1-dək** ƏDV ödənilməklə əldə edilmiş və müvafiq əvəzləşdirmə almış ƏDV ödəyiciləri tərəfindən **sahibliklərində qalan** kənd təsərrüfatı məhsullarının sonradan **satışı zamanı ƏDV həmin malların tam satış dəyərindən hesablanmalı** və sahibliklərində qalan həmin mallar barədə **2022-ci il yanvarın 31-dək** qeydiyyatda olduqları **vergi orqanına** müəyyən edilmiş formada **məlumat təqdim edilməlidir**.

## Nə dəyişdi?

- **01.01.2022-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən** yalnız respublika ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı ƏDV ticarət əlavəsindən hesablanırdı, həmin məhsullar üzrə uçot ayrıca aparılıdı, belə uçot aparılmadığı halda isə ƏDV ümumi dövriyyədən hesablanırdı.
- **01.01.2022-ci il tarixdən etibarən isə** kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV-nin bu məhsulların tətbiq edilən ticarət əlavəsindən hesablanması ilə ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsi müşahidə ediləcəkdir.

**Dövlət büdcəsinə ödənilməli olan ƏDV ilə bağlı ətraflı məlumatla "Əlavə dəyər vergisi (ƏDV)" adlı bukletdən tanış ola bilərsiniz.**

BAKI — 2022